1_Layout 1 15.02.2021 10:03 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 3 (593)
16 fevral 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# İlham Əliyev yeni inkişaf hədəflərini müəyyən etdi

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu "İlham Əliyev yeni inkişaf hədəflərini müəyyən etdi" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



Azərbaycanın milli sosial-iqtisadi inkişaf xəttinin başlıca istiqamətləri ölkə iqtisadiyyatının yüksəlişi, əhalinin rifahının daha da yaxşılaşdırılmasıdır.

Əsası hələ ötən əsrin 90-cı illərində Heydər Əliyev tərəfindən müəyyən edilmiş bu prinsiplər sürətlə həyata keçirilib, dövrün tələblərinə uyğun olaraq yenilənib, ən əsası isə qarşıya qoyulan hədəflərə inamla çatıb. Nəticə etibarilə həyatın bütün sahələrində, o cümlədən, sosial-iqtisadi sferada köklü institusional dəyişikliklər, cəmiyyətin daha yüksək inkişaf pilləsinə yüksəlməsi baş verib.

### Ümdə vəzifə uğurların davamlı olmasıdır

Azərbaycanın dünyada enerji daşıyıcılarının etibarlı ixracatçısına və regionun ən mühüm tranzit mərkəzinə çevrilməsi, karbohidrogen ehtiyatlarının hasilatı və Avropa bazarlarına çatdırılması məqsədilə iri layihələrin işə salınması, nəqliyyat dəhlizlərinin yaradılması respulikamızın iqtisadi sferada qarşıda duran məqsədlərə doğru daha sürətlə irəliləməsinə yol açıb. Məhz bu amillər XXI əsrin əvvəllərindən etibarən ölkədə aparılan genişmiqyaslı islahatların daha da dərinləşdirilməsinə, cəmiyyətin yüksək sosial-iqtisadi inkişafına şərait yaratdı. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamında da qeyd olunur ki, bu dövrdə ölkədə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin etmişdir: "Son 17 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi üç dəfədən çox böyümüş, güclü sosial-iqtisadi infrastruktur yaradılmış, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli azalmışdır. Mövcud maliyyə imkanları tarixi maksimuma çatdırılıb və ölkə yuxarı ortagəlirli dövlətlər qrupunda möhkəmlənmişdir".

Qarşıda dayanan ən ümdə vəzifələrdən, xalqımızın ən xoş arzularından biri əldə edilmiş bütün uğurların davamlı olması, cəmiyyətin bütün istiqamətlərində tərəqqinin artması, inkişafın keyfiyyətcə yeni mərhələyə yüksəldilməsidir.

Bunu zəruri edən səbəblərdən birincisi Azərbaycanın zamanın çağırışlarına vaxtında reaksiya verməsidir. Məlum olduğu kimi, qloballaşma şəraitində bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənir. Bu onu göstərir ki, müsbət iqtisadi göstəricilər daha çox ölkənin innovasiya sahəsində nailiyyətlərindən, qabaqcıl texniki standartların və metodların tətbiqindən asılı olacaq.

Bununla yanaşı, daha keyfiyyətli inkişaf mərhələsinə keçilməsini zəruri edən səbəblərdən biri torpaqlarımızın işğaldan azad edilməsidir. Eyni zamanda, Azərbaycan iqtisadiyyatı koronavirus pandemiyası sınağından da inamla çıxır. Əvvəlki illərdə aparılmış islahatlar hesabına milli iqtisadiyyat bu dövrdə xarici təsirlərə qarşı dözümlü oldu. Beləliklə, həm torpaqlarımızın işğaldan azad edilməsi, həm də pandemiyanın inamla dəf edilməsi yeni sistemli və davamlı iqtisadi islahatları zəruri edir.

### Növbəti 10 ilin milli prioritetləri

Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də bu məqsədə xidmət edir. Sərəncamda qeyd olunduğu kimi, qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulmuş məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunun, əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir: "Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir".

Beləliklə, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş milli prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;

2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;

3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;

4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;

5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bu milli prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Nazirlər Kabineti milli prioritetlərə uyğun olaraq "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsini hazırlayacaq.

Prezident İlham Əliyevin təsdiq etdiyi milli prioritetlərin həyata keçirilməsi Azərbaycanın zamanın tələblərinə və qlobal çağırışlara uyğun yüksəlişini təmin edəcək. Bu istiqamətlərdə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi respublikamızın dünyada və regionda çəkisini daha da artıracaq.

# XX əsrin dəhşətli faciəsi - Xocalı soyqırımından 29 il keçir...




Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırım cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl – 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən, Dağlıq Qarabağın yeganə hava limanının yerləşdiyi Xocalı fevralın ikinci yarısından başlayaraq, Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürülüb.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq, mühasirədəki Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeridib, onlara misli görünməmiş qəddarlıqla divan tutub, şəhər barbarcasına yerləyeksan edilib. Yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən, 68 qadının və 26 uşağın taleyi naməlumdur.

Ümummilli Lider Heydər Əliyev Xocalının o dövrdəki ölkə rəhbərliyi tərəfindən tamamilə müdafiəsiz buraxılmasına kəskin etiraz edərək deyib: "O zamankı iqtidarın Azərbaycanın milli müstəqilliyinə və xalqımıza qarşı xəyanətkar mövqeyi, öz konstitusion vəzifə borcuna cinayətkar laqeydliyi, ardı-arası kəsilməyən siyasi hakimiyyət oyunları, respublikada baş alıb gedən anarxiya və başıpozuqluq, ayrı-ayrı siyasətbazların məkrli şəxsi ambisiyaları bu tarixi faciənin törədilməsinə birbaşa şərait yaratmışdır. Uzun müddət dörd tərəfdən düşmən əhatəsində taleyin ümidinə buraxılmış vətəndaşlarımızın imdad dolu harayı qulaqardına vurulmuş, Xocalının xilas olunması üçün real imkanların mövcudluğuna baxmayaraq, günahsız əhali məqsədyönlü şəkildə bu milli qırğına sürüklənmişdir. Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır".

Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Srebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır.

Bəşəri cinayət olan Xocalı soyqırımının təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi, birbaşa icraçıları isə Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətidir.

Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarına əsasən, 26 fevral Xocalı Soyqırımı Günü elan edilib.

Ümummilli Lider Heydər Əliyev Xocalı soyqırımı haqqında deyib: "Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırımı aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir".

Bununla əlaqədar Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində görülən işlər ildən-ilə daha da genişlənir. Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə hər il Xocalı soyqırımı genişmiqyaslı tədbirlərlə yad edilir.

**president.az**

2_Layout 1 15.02.2021 10:05 Page 1



# Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş çağırışçılar hərbi andı qəbul ediblər

Fevralın 9-da Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib. Tədbirdə daxili qoşunlar komandanının 1-ci müavini - qərargah rəisi general-mayor Tofiq Hüseynov iştirak edib.



Mərasim Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.



Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik-leytenant Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir. Təbrikdə, həmçinin, 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi də bildirilib.

Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daima Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər.

Tədbirdə ulularımızdan bizə miras qalmış mərdlik, ləyaqətlilik və vətənpərvərlik kimi xüsusiyyətləri özündə cəmləşdirən Azərbaycan əsgərinin Vətənin layiqli müdafiəçisi, Azərbaycan xalqının ümid yeri olduğu da fəxr hissi ilə vurğulanıb.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Daxili Qoşunların Ali Hərbi Məktəbi ilə tanış olub

“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının “Ombudsman təsisatı və hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər” mövzusunda, həmçinin, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin və hərbi hissələrinin şəxsi heyəti ilə 2021-ci ildə keçirilməsi nəzərdə tutulan birgə görüşlərə dair tədbirlər planı”na əsasən fevralın 11-də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Daxili Qoşunların Ali Hərbi Məktəbində olub.





Görüşün keçirilməsində əsas məqsəd İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında kursantlara və ümumilikdə, şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilməsini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.

İlk olaraq, Ali Hərbi Məktəbin ərazisi ilə tanış olan qonaq daha sonra tədris binasına, sinif otaqlarına, kursant yataqxanasına, yeməkxanaya və yuyunma otaqlarına ümumi baxış keçirib. Kursantlara insan hüquqları, bu əsnada, hərbi qulluqçuların hüquqları, Ombudsmanın bu istiqamətdə fəaliyyəti barədə məlumat verilib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılıb.

Görüşün sonunda İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) S.Əliyeva tədrisdə fərqlənən kursantlara hədiyyələr təqdim edib.

Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların müxtəlif hərbi hissələrində Ombudsman Aparatı əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirməsi nəzərdə tutulur.

**baş leytenant Xədicə Hacızadə**

# “HƏVALƏ EDİLMİŞ OBYEKTLƏRİN ETİBARLI MÜHAFİZƏ VƏ MÜDAFİƏSİNƏ NAİL OLMAQ BAŞLICA MƏQSƏDİMİZDİR”

Başlıca vəzifəsi döyüş bayrağının və hərbi şəhərciyin etibarlı mühafizəsi və müdafiəsini təmin etmək olan komendant bölüyünün hərbi qulluqçuları tərəfindən qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi və xidmətin düzgün təşkili olduqca vacibdir. Etibarlı mühafizənin təşkili qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır. Bu baxımdan komendant bölüyündə xidmət edən şəxsi heyət bilik səviyyəsi nəzərə alınmaqla, yüksək döyüş hazırlığına, verilən tapşırıqları dəqiq və cəld yerinə yetirmək qabiliyyətinə malik olan, nizam-intizamlı, nümunəvi müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları arasından seçilir.



25031 saylı hərbi hissənin komendant bölüyü də 2020-ci ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə birinci yerə layiq görülərək, fərqlənənlər sırasında yerini alıb, kubokla mükafatlandırılıb. Bu uğurun qazanılmasında bölük komandiri kapitan Zeynal Cəfərovun rolunu xüsusilə qeyd etmək lazımdır.

Kapitan Z.Cəfərov bildirdi ki, komendant bölüyünün xidməti Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. O, bir komandir kimi bölüyün döyüş hazırlığının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi üçün daim çalışır, zabit tələbkarlığı ilə yanaşı, şəxsi heyətdən diqqət və qayğısını əsirgəmir.

Xidmətə cəlb edilməzdən öncə şəxsi heyətə bölük komandiri və onun müavinləri tərəfindən təlimat keçirilir, hərbi nizamnamələrin müvafiq maddələri çatdırılır.



Ümumiyyətlə, xidmətə cəlb edilməzdən bir gün əvvəl hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır.

Məlumdur ki, məsuliyyətli, eyni zamanda, mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, nizam-intizamının qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu söyləyən kapitan Z.Cəfərov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi, onların hərbi bilik və bacarıqlarının artırılmasına təkan verdiyini dedi.

Bölük komandiri onu da söylədi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçular arasında yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə tərbiyə işi tədbirləri keyfiyyətlə həyata keçirilir. Bu işdə komendant bölüyü komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Sarvan İlyasovun zəhməti böyükdür: “Bölükdə mövcud olan hərbi intizam və yüksək döyüş hazırlığını saxlamaqla bərabər, hissə komandanlığının etimadını hər zaman doğrultmaq əzmindəyik. Şəxsi heyətlə keçirilən bütün məşğələlərin və aparılan tərbiyə işinin əsasını bu prinsip təşkil edir”.

Bölük komandiri komendant bölüyünün qabaqcıl hərbi qulluqçularından çavuş Nail Bağırov, baş əsgərlərdən Məhəmməd Yusifov, Turqut Bəşirli, Şahin Əzimzadə, əsgərlərdən Hökümdar Sədiyev, İlkin Çələbiyev, İntiqam İsmayılov, Berno Pünhanın xidmətlərini müsbət qiymətləndirərək, onların şəxsi heyətə nümunə olduqlarını qeyd etdi.

**baş leytenant Xədicə Hacızadə**

# HƏRBİ QULLUQÇULAR ÜÇÜN MÜASİR ŞƏRAİTİN YARADILMASI XİDMƏTİN YÜKSƏK SƏVİYYƏDƏ TƏŞKİLİNƏ GENİŞ İMKANLAR AÇIR

Daxili Qoşunların hərbi hissələrinin xidməti-döyüş fəaliyyəti və şəxsi heyətin nümunəvi xidməti “Əsgər” qəzetində daim işıqlandırılır. 17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taboruna ilk xidməti ezamiyyətim bölmənin bugünkü həyatı barədə məqalə hazırlamaq məqsədi daşıyırdı. İlk olaraq, burada aparılmış abadlıq və quruculuq işləri diqqətimi cəlb etdi.

Tabor komandiri polkovnik-leytenant Səxavət İldırımov əvvəlcə şəxsi heyətin üzərinə düşən vəzifələrdən danışdı. Bildirdi ki, tabor daxili işlər orqanları ilə yanaşı, yerləşdiyi rayonda daxili sabitliyin qorunması, hüquqazidd əməllərin qarşısının alınması yönündə fəaliyyət göstərir. Şəxsi heyətin qarşısında duran əsas vəzifələr onlara təhkim olunmuş ərazilərdə ictimai asayişin və ictimai təhlükəsizliyin təmin olunmasıdır.

Polkovnik-leytenant S.İldırımov hərbi qulluqçuların döyüş qabiliyyətinin yüksək səviyyədə qorunub saxlanılması üçün hərtərəfli şəraitin mövcud olduğunu diqqətə çatdırdı.

Döyüş hazırlığının yüksəldilməsi məqsədilə şəxsi heyətin təliminə ciddi diqqət yetirildiyini deyən tabor komandirinin müavini-qərargah rəisi kapitan Fərid Sucayev hərbi qulluqçularla keçirilən məşğələlərə şəxsən nəzarət etdiyini bildirdi.

Şəxsi heyətin nizam-intizamının möhkəmləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Bunun üçün hərbi qulluqçularla, xüsusən, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə fərdi söhbətlər aparılır, onların mənəvi-psixoloji durumları öyrənilir. Təbii ki, bu istiqamətdə görülən işlərdə taborun tərbiyə işləri üzrə müavini mayor Əli Ağayevin əməyi danılmazdır.

Tabor komandiri burada gündəlik fəaliyyət barədə məlumat verərkən qeyd etdi ki, bölük növbətçisi və bölüyün gün növbətçisi, nəzarət-buraxılış məntəqəsi növbətçisinin köməkçisi, avtopark, eləcə də əsgər yeməkxanası naryadına patrul və təminat bölükləri, qarovul xidmətinə isə komendant taqımı cəlb olunur.

Xüsusi vasitələrin tətbiqi bölməsi və xüsusi təyinatlı qrup ölkəmizdə tətbiq olunan xüsusi karantin rejimi tədbirlərinin icrasına nəzarətlə əlaqədar daxili işlər orqanlarının əməkdaşları ilə birlikdə Ağstafa və Qazax rayonlarında, həmçinin, Vətən müharibəsi dövründə tətbiq olunan komendant saatı zamanı Ağstafa, Tovuz, Qazax rayonlarında qurulan postlarda xidmətə cəlb olunub.





Hər bir xidmətin daima aidiyyəti zabitlər tərəfindən diqqət mərkəzində saxlanıldığını deyən tabor komandiri şəxsi heyətin qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəldiyini diqqətə çatdırdı.

Müasir standartlara cavab verən avadanlıqlarla təchiz olunmuş tibb məntəqəsi, əsgər yeməkxanası və avtopark həqiqətən məndə xoş təəssürat yaratdı.

Hərbi qulluqçuların milli xörəklərdən ibarət keyfiyyətli qida ilə təmin olunması üçün əsgər yeməkxanasında hər cür şərait yaradılıb. Koronavirus pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə qidalanma zamanı hərbi qulluqçular arasında sosial məsafənin gözlənilməsinin, hər qida qəbulundan sonra masaların, mətbəx qablarının və avadanlıqlarının yuyulmasının və dezinfeksiya tədbirlərinin görülməsinin şahidi oldum.

Şəxsi heyətin Daxili Xidmət Nizamnaməsində nəzərdə tutulmuş qaydalara ciddi riayət etməsi taborda yüksək nizam-intizamın, sağlam mühitin yaranmasını şərtləndirir. Belə bir mühitin mövcud olması isə nəticə etibarilə sağlam düşüncəli, hərtərəfli hazırlığa malik əsgərlərin formalaşmasına zəmin yaradır.

Taborun nümunəvi xidməti ilə seçilən hərbi qulluqçularından gizir Elvin Məmmədov, baş çavuşlar Zeynal Əsgərov, Mehman Pirov, çavuş Anar Həsənov, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından çavuş İlqar Gəncəliyev və Hacıbaba İsmayılovun adlarını vurğulamaq olar.

**kapitan**
**Sadıq Rəfiyev**

Şəhidlərimiz

# “Qarabağ” ordenli cəsur baş leytenant...

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda 44 gün davam edən Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də əzmlə vuruşaraq, düşmənə sarsıdıcı zərbələr endirib və əsl qəhrəmanlıq nümunələri göstərib. Vətən müharibəsi zamanı qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 nəfər hərbi qulluqçu isə yaralanıb və xəsarət alıb.

Vətən uğrunda son damla qanınadək döyüşərək şəhidlik zirvəsinə ucalmış cəsur silahdaşlarımızdan biri də baş leytenant Kazımov Kamran Qurbanəli oğludur.

Baş leytenant Kamran Kazımov 1990-cı il dekabrın 7-də Rusiya Federasiyasının Voloqda vilayətinin Vaşki rayonunda anadan olub. Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik-leytenant Qurbanəli Kazımovun və Elmura ananın böyüdüb tərbiyə etdiyi üç övladdan (Kamran, Xəyalə və Orxan) biri, həmçinin, ailənin böyük övladı idi Kamran...

Orta təhsilini 1997-2008-ci illərdə Xətai rayonundakı şəhid Sədrəddin Həsənov adına 63 saylı orta məktəbdə alıb. Kamran orta məktəbdə oxuduğu illərdə idmanın karate növü ilə məşğul olub və 1-ci dan “Qara kəmər” ustası dərəcəsinədək yüksəlib. Bununla yanaşı, musiqilə həvəskar səviyyədə məşğul olub və fortepianoda məharətlə ifa etməyi bacarıb. Fəal şagird kimi orta məktəbdə keçirilən tədbirlərdə, eləcə də ictimai işlərdə hər zaman fərqlənib.

Müddətli həqiqi hərbi xidmətini 2010-2011-ci illərdə Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçib. Bu barədə məlumat verən, o dövrdə xüsusi təyinatlı dəstənin komandiri olmuş və Vətən müharibəsində iştirakı ilə əlaqədar “Füzulinin azad olunmasına görə” medalı ilə təltif edilmiş polkovnik-leytenant Tural Novruzov cəsur silahdaşımızı öz üzərində çalışan fəal hərbi qulluqçu kimi xatırladığını deyir: “Xüsusi təyinatlıya xas olan bütün müsbət xarakterik xüsusiyyətlər Kamranda vardı.

Yaxşı yadımdadır, dəstənin şəxsi heyətilə istər atəş və fiziki hazırlıq, istərsə də digər fənlər üzrə keçirilən praktiki məşğələlər zamanı göstərdiyi müsbət nəticələrilə bağlı hətta bir neçə dəfə onu sıranın qarşısına çıxarıb, yoldaşlarına nümunə də göstərmişdim”.

Beləliklə, hərbçi ailəsində böyüyüb boya-başa çatan və uşaq yaşlarından bu peşəyə böyük həvəsi olan Kamran müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların 67987 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilərək, Vətənə olan borcunu şərəflə və böyük qürur hissi ilə yerinə yetirməyə başlayıb. Zabit kimi atasının yolunu davam etdirmək arzusunda olan silahdaşımız 2012-ci ildə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbinə (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) daxil olub. 2014-cü ildə bu hərbi təhsil ocağını bitirərək “leytenant” hərbi rütbəsi alan Kamran yenidən 67987 saylı hərbi hissədə xidmətini davam etdirib. 2017-ci ilin noyabr ayınadək burada müxtəlif bölmələrin tərkibində taqım və qrup komandiri vəzifələrində xidmət edib. Nümunəvi komandir və bir zabit kimi bilik və bacarığı sayəsində böyük rəislərin etimadını və tabeliyində olan şəxsi heyətin hörmətini qazanmağa müvəffəq olub. Hər zaman yüksək döyüş hazırlığı və qüsursuz xidmətilə fərqlənən hərbi qulluqçu kimi 3-cü dərəcəli “Qüsursuz xidmətə görə” medalı ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.



Keçirilən təlimlərə böyük həvəslə qatılan Kamranın ən böyük arzusu isə döyüş meydanında düşməni məğlub etmək və işğal olunan doğma Qarabağımızı yağı tapdağından azad etmək olub.

67987 saylı hərbi hissədə “Kobra” şərti adını daşıyan xüsusi təyinatlı dəstənin komandiri, “Vətən Müharibəsi Qəhrəmanı” fəxri adına layiq görülən, “Füzulinin azad olunmasına görə” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilmiş polkovnik-leytenant Füzuli İmrəliyev vaxtilə birgə xidmət etdiyi qrup komandirini böyük qürur hissi ilə xatırladığını deyir: “Müqəddəs torpaqlarımızın azad olunması ilə nəticələnən və tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsində dəstəmizin 9 nəfər hərbi qulluqçusu qəhrəmancasına vuruşaraq şəhid olub. Onlardan biri də qrup komandiri baş leytenant Kamran Kazımovdur.

Həm bir komandir, həm də olduqca vətənpərvər, ləyaqətli zabit kimi tabeliyində olan şəxsi heyət üçün hər zaman nümunə idi Kamran. İstəyərdi ki, keçirilən bütün praktiki məşğələlərdə məhz onun komandiri olduğu qrup birinci olsun və fəaliyyətini də əsasən bu istiqamətdə qururdu. Bir insan kimi çox səmimi, mehriban, gülərüz, tabeliyində olanlara qarşı son dərəcə diqqətcil idi. Dəstənin bütün şəxsi heyətinin uğuruna hədsiz dərəcədə sevinərdi.

Olduqca cəsarətli, gözündə heç zaman qorxu hissi olmayan bir komandir və mükəmməl döyüşçü idi. Elə döyüşdə də əsas amalı gözünü qırpmadan ancaq irəliyə - düşməni məğlubiyyətə uğradanadək üzərinə getmək olub. Onun qrupu cəsur komandirlərinin qorxmazlığından və vətənpərvərliyindən güc alaraq, döyüş meydanında əsl qəhrəmanlıqlar göstərdi”.

Baş leytenant K.Kazımovun döyüş yolu elə Vətən müharibəsinin ilk günündən - 2020-ci il sentyabrın 27-dən başlayıb. Bu tarixdən etibarən onunla birgə döyüşlərə qatılmış 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində müddətdən artıq xidmət edən qazi silahdaşlarımız - çavuşlar Fərid Bağırlının və Ramiz Həsənovun qeyd etdikləri kimi, Kamran komandir olmaqla yanaşı, həm də əsl döyüşçü kimi öz cəsurluğunu və qorxmazlığını Murovdağ istiqamətində bir sıra strateji yüksəkliklərin azad olunması uğrunda başlayan ilk hərbi əməliyyatlarda göstərib: “Gözündə heç bir qorxu hissi olmayan və hər zaman özünə şəhid olmağı arzulayan komandirimiz vuruşmaqla yanaşı, şiddətli döyüşlərin gedişində irəli atılaraq neçə-neçə yaralı hərbi qulluqçumuzu ölümün cəngindən xilas edib və yenidən düşmənin başına od-alov yağdırıb”.

Çavuş Fərid Bağırlının qeyd etdiyi kimi, Kamran elə onun özünü və baş çavuş Əsgər Əhmədovu (sonralar Cəbrayıl istiqamətində gedən döyüşdə qəhrəmancasına şəhid olub) məhz düşmənin artilleriya atəşi altından xilas etmişdi.

**5 oktyabr 2020-ci il...** Cəbrayıl istiqamətində gedən döyüş Kamranın son döyüşü oldu.

İştirakçısı olduğu bu hərbi əməliyyatlar barədə xatirələrini bizimlə bölüşən qazimiz çavuş R.Həsənov məhz cəsur komandirin rəhbərliyi altında qarşıya qoyulan bir çox döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirdiklərini deyir: “Bu döyüşdə baş leytenant K.Kazımov qrupun şəxsi heyəti ilə birgə düşmənin şəhər ətrafındakı yüksəkliklərdə



yerləşən bir neçə strateji postunu ələ keçirərək, ermənilərin 38 nəfər canlı qüvvəsini, o cümlədən, iki tankını, dörd topunu və biri sursat daşıyan olmaqla, iki avtomobilini məhv edib. Bundan qorxaraq, “UAZ” markalı avtomobillə döyüş meydanını tərk edərək qaçan yüksək rütbəli düşmən komandirini və sürücüsünü baş leytenant K.Kazımov “Muxa” tipli qumbaraatanla cəhənnəmə vasil edib. Təbii ki, bu məğlubiyyətlə barışmaq istəməyən və əlavə xeyli qüvvə toplayaraq yenidən hücuma keçən ermənilərin niyyətini yaxşı anlayan komandirimiz şəxsi heyət mühasirəyə düşməsin deyə onlara geri çəkilməyi əmr edərək, özü 2 nəfər silahdaşımızla birgə atəş dəstəyi ilə düşmənin irəliləməsinin qarşısını aldı. Lakin şiddətli döyüşün gedişində ağır yaralanan cəsur komandirimiz, eləcə də onunla birgə vuruşan Daxili Qoşunların digər hərbi qulluqçusu – baş çavuş Vüqar Cəfərov və Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Orxan Əlimuradov qəhrəmancasına şəhid oldular”.

Baş leytenant K.Kazımov 2020-ci il oktyabrın 6-da Bakıdakı İkinci Fəxri xiyabanda dəfn olunub. Evli idi. Xalqımıza Aydan adlı qız və Ərtoğrul adlı oğul əmanəti qalan şəhidimizin yaxın aylarda üçüncü övladı da dünyaya göz açacaq.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli, 15 dekabr 2020-ci il tarixli, 22 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş leytenant Kazımov Kamran Qurbanəli oğlu (ölümündən sonra) “Qarabağ” ordeni, “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

*Sən Vətənlə yaşadın, bu Vətəndən güc aldın,*
*Vətəni sevə-sevə sevgin ilə ucaldın,*
*Qəhrəmanlıq dastanın yazıb tarixdə qaldın,*
*Əzminin sorağını eşitdi bütün cahan,*
*Əziz canından keçib Vətənə sipər olan.*

Bu misralar şairə Manya Səxavətqızının zabitimizin şəhadətə qovuşduqdan sonrakı ilk doğum günü münasibətlə qələmə aldığı şeirindən bir parçadır.

Kamranın ailə üzvlərinin və onunla birgə döyüşlərdə iştirak etmiş hərbçi yoldaşının xatirələri əsasında Azərbaycan Televiziyasının “TeleSəhər” verilişində efirə gedən “Cənnətində rahat uyu, cənab baş leytenant”, “Space” televiziya kanalında efirə gedən “Şəhidlik zirvəsi”, o cümlədən, 30 yaşının tamam olması münasibətilə “ARB” televiziya kanalının “Günə doğru” verilişində efirə gedən “Şəhid baş leytenant Kamran Kazımov” adlı süjetlərdə qəhrəman zabitimizin gənc nəslə nümunə olan həyat və hərbi xidmət yolu barədə məlumatlar izləyicilərə təqdim edilib. Bundan əlavə, “525-ci qəzet”in 22 yanvar 2021-ci il tarixli sayında Şəhanə Müşfiqin müəllifi olduğu “Əbədiyyətdəki əziz ünvanlarımız - Şəhidlər ölməz, Vətən bölünməz!” başlıqlı məqalədə digər şəhidlərimizlə yanaşı, cəsur silahdaşımızın da həyat və döyüş yolu işıqlandırılıb.

**“Şəhid atası olmaq başucalığıdır” - deyən hörmətli veteranımız Qurbanəli Kazımovun qeyd etdiyi kimi, Kamran indi təkcə onun yox, həm də bu Vətənin övladıdır. Vətən uğrunda canını qurban verən Kamran kimi igid oğullarımızın əziz xatirəsi isə qədirbilən xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.**

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

Qazilərimiz

# VƏTƏNPƏRVƏR ZABİT VƏ XÜSUSİ TƏYİNATLI MƏSLƏYİNİN DAŞIYICISI KİMİ DÖYÜŞ SINAĞINDAN ŞƏRƏFLƏ KEÇDİ...

2020-ci il Azərbaycan tarixində erməni işğalçılarına qarşı Vətən müharibəsində qazandığımız böyük hərbi zəfərlə unudulmaz iz qoydu. Xalqımızın mərd oğulları düşməni döyüş meydanında məğlub edərək, şəhidlərimizin qanı tökülən müqəddəs torpaqlarımızın işğalına son qoydular. Azərbaycanın fəxri olan bu oğulların sıralarında Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçuları da vətənpərvərlik və şücaət nümunələri göstərərək fərqləniblər.

44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçən hərbi qulluqçularımızın bir qismi ön cəbhədən yaralı olaraq geri qayıdıb. Ağır sınaqlardan keçmiş hərbi qulluqçularımızın döyüş yolunu işıqlandırmağı özümüzə mənəvi borc bilirik.

Kapitan Vüsal Həsənov da Vətən müharibəsi iştirakçısıdır. O, 1982-ci il avqustun 20-də Füzuli rayonunun Mahmudlu-2 kəndində anadan olub. Qarabağ münaqişəsi başlayanda onun 6 yaşı var idi. 1993-cü ilin avqust ayında Füzuli rayonunun böyük hissəsi işğal olunmuşdu. Həmin vaxt doğma yurdu da düşmənin hərbi təcavüzünə məruz qalmış, kənd əhalisi məcburi köçkün vəziyyətinə düşmüşdü. Ancaq bir müddət sonra ordumuz kənd üzərində nəzarəti bərpa etmişdi. 1994-cü ilin yanvar ayında isə rayonun Horadiz qəsəbəsi (hazırda Horadiz şəhəri) və bir çox kəndinin işğalına son qoyulmuşdu.

Mahmudlu-2 kəndindəki şəhid Qeyrət İbişov adına orta məktəbin məzunu olan Vüsal 2000-2004-cü illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ali təhsil alıb.

2004-2005-ci illərdə Vüsal Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının tərkibində Naxçıvanda müddətli həqiqi hərbi xidmət keçib. Ali təhsilli sərhədçi kimi ona zenit qurğusunda baş operator-heyət komandiri vəzifəsi etibar olunub. Mülki ixtisasa yiyələnməsinə baxmayaraq, həyatını hərbi xidmətə bağlaması Vüsalın vətənpərvərlik əqidəsindən, hərbçi peşəsinə rəğbətindən irəli gələn bir seçimi idi. 2007-ci ilin dekabr ayında Daxili Qoşunların sıralarına





müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub, ona “kiçik çavuş” hərbi rütbəsi verilib. 2007-2020-ci illərdə 67987 saylı hərbi hissədə xidməti dövründə öz əzmkarlığı sayəsində həm rütbədə, həm də vəzifədə yüksəlib. Əsasən xüsusi təyinatlı dəstədə, habelə komendant bölüyündə məsul vəzifələrə təyin edilib.

O, Türkiyə Cümhuriyyətində Jandarm Məktəblər Komandanlığının Tədris Mərkəzində gizir təməl kursunu, terrorla mübarizə, girovların azad edilməsi üzrə kursu və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində paraşütçülər kursunu müvəffəqiyyətlə bitirib. Qeyd edilən kurslarda öyrəndiyi biliklər, yiyələndiyi praktiki təcrübə onun peşəkar hazırlığına öz müsbət təsirini göstərib.

2013-cü ilin may ayının 23-dən etibarən hərbi qulluqçumuz zabit rütbəsində xidmətini davam etdirir. 2020-ci il iyunun 27-də 17071 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi vəzifəsinə irəli çəkilib.

Vətən müharibəsinədək olan dövrdə zabitimiz “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi” yubiley medalı, 3-cü dərəcəli “Qüsursuz xidmətə görə” medalı, Daxili Qoşunların “Xidmətdə fərqləndiyinə görə” döş nişanı ilə təltif olunub, həvəsləndirmə qaydasında vaxtından əvvəl ona “kapitan” hərbi rütbəsi təqdim edilib.

Hərbi qulluqçu üçün Vətənin müdafiəsinə və istənilən döyüş tapşırığını yerinə yetirməyə daim hazır olmaq vacib şərtdir. Vüsal bir zabit, habelə xüsusi təyinatlı məsləyinin daşıyıcısı kimi həmişə özünü döyüş sınağına hazırlayıb.

Vətən müharibəsi onun od-alovundan keçən minlərlə hərbi qulluqçu kimi, Vüsal üçün də həyatının unudulmaz səhifəsidir. O, düşmənə sonsuz nifrət, itirdiyimiz torpaqlarımıza qovuşacağımıza ümid və ilahi ədalətə inam hissi ilə illərlə bu məqamı gözləyib.

Kapitan V.Həsənov Füzuli, Xocavənd rayonları və Şuşa şəhəri uğrunda döyüşlərdə düşmənə qarşı qətiyyətlə vuruşub. Tanıdığı silahdaşları ilə birgə döyüşlərə atılması onu çətin məqamlarda daha da ruhlandırıb.

Özünün dediyinə görə, iştirak etdiyi ilk ağır döyüşlərdən biri Füzuli rayonu ərazisində düşmənin mühüm müdafiə mövqeyinin yerləşdiyi, xəritədə müvafiq nömrə ilə adlandırılan təpə uğrunda olub. Həmin təpənin alınması bizim canlı qüvvənin irəliləməsinə, ətrafdakı bir neçə kəndimizin tam nəzarətimizə keçməsinə, eləcə də yaxınlıqdakı avtomobil yolunun açılmasına imkan verirdi. Bu əməliyyat 17071, 67987 və 99713 saylı hərbi hissələrin xüsusi təyinatlılarından ibarət qruplar tərəfindən uğurla başa çatdırılıb. Döyüş zamanı Vüsal partlayan düşmən mərmisinin qəlpəsindən qolundan yaralanıb. Ancaq o, yerindəcə göstərilən ilk tibbi yardımla kifayətlənərək təxliyyə edilməsinə razı olmayıb. Beləliklə, döyüş yolunu davam etdirib.

Vüsal söylədi ki, döyüşlərdə minalanmış sahələr və düşmənin möhkəmləndirilmiş atəş nöqtələri də bizim canlı qüvvənin qarşısında əsas maneələrdən olub. Hərbi qulluqçularımız ən təhlükəli istiqamətlərdə belə, yüksək iradə və cəsarət nümunəsi göstəriblər, heç kəs güllə, mərmi atəşi altında geri çəkilməyib, hədəfə çatanadək düşmən üzərinə həmlələr edilib. O, cəbhə bölgəsinin ayrı-ayrı sahələrində xüsusi təyinatlılardan ibarət qruplara bacarıqla rəhbərlik etmiş zabitlərdən polkovnik-leytenant Tural Novruzovun, polkovnik-leytenant Füzuli İmrəliyevin və kapitan Anar Mahmudovun rolunu xüsusi vurğuladı. Döyüş tapşırıqlarının uğurla nəticələnməsində onların peşəkarlığının və tabeliklərindəki şəxsi heyətin mübarizliyinin vacib amillər olduğunu nəzərə çatdırdı.

Zabitimiz bildirdi ki, müharibədə hücum döyüşləri ilə yanaşı, nəzarətimizə keçən ərazilərdə axtarış yönümlü, düşmənin diversiya-kəşfiyyat fəaliyyətinə qarşı tədbirlər, o cümlədən, kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsi də təmin olunub.

Füzuli-Xocavənd zonasından sonra şahidi olduğu əsas döyüşlərin Şuşa ətrafında və şəhərin özündə getdiyini qeyd edən Vüsal bu istiqamətdə işğalçıların yüksəkliklərdəki əlverişli mövqelərdə yerləşmələrinə baxmayaraq, bölmələrimizin inadlı həmlələri qarşısında davam gətirə bilmədiklərini, məğlubiyyətə uğradıqlarını dedi.

Ümumilikdə, ordumuzun Şuşa ətrafına onların gözləmədiyi istiqamətdən gəlib çıxması və şəhəri azad etmək üçün seçdiyi taktika erməniləri şoka salıb.

Kapitan V.Həsənov Şuşa uğrunda döyüşdə bədəninin bir neçə nahiyəsindən mərmi qəlpələrindən yaralanıb. Bu dəfə yaraları əvvəlkindən ağır olsa da, vəziyyətlə bağlı üç gün sonra təxliyyə edilib. Söylədi ki, yaraların fiziki ağrılar verməsinə baxmayaraq, qazanılan zəfər ona mənəvi güc verib.

Qazimiz müharibədə ən ağır sarsıntının gözləri önündə silahdaşlarının şəhid olduqları anlarda yaşandığını bildirdi. Bəzi şəhidlər ömrün son dəqiqələrində doğmalarına çatdırılacaq ürək sözlərini, vəsiyyətlərini döyüşçü yoldaşlarına deyiblər. Şəhidlərin nur çökmüş simaları heç vaxt unudulan deyil.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il, habelə 25 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə kapitan Vüsal Həsənov “Qarabağ” ordeni və “Füzulinin azad olunmasına görə” medalı ilə təltif olunub.

Zabit kimi müharibə sınağından alnıaçıq çıxması, hərbi anda sədaqəti tabeliyindəki şəxsi heyətə, paqondaşlarına dəyərli örnəkdir.

Dörd övlad atası olan Vüsal üçün onları layiqli vətəndaş olaraq yetişdirmək də Vətənə xidmət kimi həyatının mənasına çevrilən çox önəmli missiyadır.

**Yalçın Abbasov**

4_Layout 1 15.02.2021 10:28 Page 1



# VƏTƏN MÜHARİBƏSİ QAZİLƏRİMİZİN SAĞLAMLIĞININ BƏRPA OLUNMASINDA HƏRBİ QOSPİTALIMIZIN ROLU DANILMAZDIR

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi Qospitalı - 12576 saylı hərbi hissəsi böyük inkişaf yolu keçmiş və bu gün öz potensialı, zəngin təcrübəsi ilə fərqlənir. Hər zaman əsgər və zabitlərimizin sağlamlıqlarının etibarlı təminatçısı olan qospital respublikada müasir tibbi avadanlığa malik sağlamlıq mərkəzlərindən biridir desək, heç də yanılmarıq. Bu gün Daxili Qoşunların şəxsi heyətinin sağlamlığının keşiyində müsəlləh əsgər kimi durmuş Hərbi Qospitalın tibb işçiləri vəzifələrinin öhdəsindən layiqincə gələrək, hərbi qulluqçularımızın qısa bir müddətdə və keyfiyyətlə müalicə olunmasını təmin edirlər. Şəxsi heyətin, veteranlarımızın, eləcə də hərbi qulluqçularımızın ailə üzvlərinin sağlamlığının təminatçısına çevrilmiş qospitalda xidmətin təşkili ildən-ilə daha da təkmilləşdirilir.





Hər dəfə bu tibb müəssisəsinə xidməti ezamiyyətim zamanı burada davamlı olaraq abadlıq-quruculuq işlərinin aparılmasının, xidmət sahələrinin genişləndirilməsinin davam etdirildiyinin və ələlxüsus şöbələrdə sanitar-gigiyenik qaydalara, göz oxşayan səliqə-sahmana riayət edildiyinin şahidi oluram. Burada çalışan hər bir tibb işçisinin vəzifəsi müalicəyə ehtiyacı olan hərbçilərə tələb olunan səviyyədə tibbi yardım göstərməkdir. Ümumiyyətlə, yola saldığımız ötən ildə ölkəmizdə ümumi pandemiya şəraitində və 44 günlük Vətən müharibəsi dövründə peşəkar həkimlərimizin və orta tibb heyətinin fasiləsiz xidməti və çəkdiyi zəhməti danılmazdır. Fədakar xidmətləri nəticəsində neçə-neçə Vətən övladının həyata qayıtmasında həkimlərimizin xüsusi rolu var.



12576 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Vidadi İmanov İkinci Qarabağ müharibəsi zamanı şöbələrdə çalışan həkimlərin bir-birilə qarşılıqlı əlaqədə xidmət etdiklərini, yaralı döyüşçüləri ölümün pəncəsindən alaraq, hər bir hərbi qulluqçuya xüsusi qayğı ilə yanaşdıqlarını nəzərimizə çatdırdı. Keçən il sentyabrın 27-dən bir neçə gün sonra yaralıların qəbulunu, onlara ilkin tibbi yardımın göstərilməsini həyata keçirən qospitalda üzərinə böyük yük düşən digər şöbələr kimi qəbul və funksional-diaqnostika şöbələrinin fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Hər iki şöbənin rəisi ilə söhbət əsnasında məlum oldu ki, ölkəmizin ağır günlərində döyüş bölgəsindən təxliyyə edilmiş yaralıların və ya dünyanı öz cənginə alan COVID-19 virusuna yoluxmuş xəstələrin qəbulu, aidiyyəti üzrə təyinatlarının verilməsi zamanı həkimlərimiz onlara ayrılan iş saatlarından əlavə qalaraq yorulmadan, fədakarcasına xidməti-vəzifə borclarını icra ediblər.

Qəbul şöbəsinin rəisi tibb xidməti mayoru Ceyhun Abbasov tabeliyində olan həkim və orta tibb işçilərinin əməyini yüksək qiymətləndirdi: “44 günlük müharibə dövründə döyüş bölgəsindən təxliyyə olunmuş yaralıların qəbulu, sənədləşməsi, şöbələrə yerləşdirilməsi, ehtiyacı olanlara yerində tibbi yardımın göstərilməsi tərəfimizdən təmin olunub. Eyni zamanda, pandemiya şəraiti ilə əlaqədar olaraq COVID-19-dan şübhəli xəstələrin müayinəsinin, diaqnostika və izolyasiyasının təşkili, diaqnozu təsdiq olunmuş xəstələrin ixtisaslı müəssisələrə təcili təxliyyəsi həyata keçirilib. Hazırda xəstələrin ümumi ambulator qəbulu, laborator və instrumental müayinələrin təyini, kliniki dəyərləndirilməsi mütəxəssislərlə konsultasiya olunduqdan sonra xəstəlik tarixlərinin tərtib edilərək şöbələrə yerləşdirilməsi xidmətimizin əsasını təşkil edir. Həmçinin, qəbul şöbəsində xəstələrə ilkin yardımın göstərilməsi və sanitar işlənməsi də aparılır”.

Son illərdə modernləşdirilmiş şöbənin ərazisi genişləndirilib, xəstələrin rahat qəbulu üçün hərtərəfli şərait yaradılıb. Şöbədə oftalmoloq, lor həkimi və xüsusilə ağır xəstələrin müayinəsi, ekspres laboratoriyanın işi üçün tam təchizatlı otaqlar ayrılıb. Modernləşdirilmiş sarğı otağı da yeni avadanlıqlarla təchiz edilib. Həmçinin, burada bütün ambulator əməliyyatların aparılması planlaşdırılıb. Xəstələrin istirahət saatlarının səmərəli təşkilini diqqət mərkəzində saxlayan tibb xidməti mayoru C.Abbasov onlar üçün şöbənin arxa ərazisində salınmış gül bağçası ilə də bizi tanış etdi.

Bütün görülən işlərin nəticəsidir ki, qəbul şöbəsinin rəisi, baş tibb bacısı, tibb bacıları, təsərrüfat bacısı da hərbi hissə komandanlığı tərəfindən müxtəlif mükafatlara layiq görülüb. Ötən ildə şöbənin xidməti yükü və iş fəaliyyəti nəzərə alınaraq, Hərbi Qospitalın rəisi tibb xidməti polkovniki Şəmsəddin Heydərov tərəfindən “ilin şöbəsi” adına layiq görülüb.

## FUNKSİONAL DİAQNOSTİKA ŞÖBƏSİ

Funksional diaqnostika şöbəsi qospitalın ən böyük və təyinatı baxımından olduqca əhəmiyyətli şöbəsidir. Funksional diaqnostika şöbəsinin rəisi mayor Vəsilə Əsgərova təcrübəli həkimdir. O, 2009-cu ildən bu günə kimi Daxili Qoşunların Hərbi Qospitalında ləyaqətlə xidmətini davam etdirir. 2016-cı ildən şöbə rəisidir. Vəzifə borcuna vicdanlı münasibəti, təşkilatçılıq qabiliyyəti, işgüzarlığı nəzərə alınaraq ona bu etimad göstərilib. Bu günədək dəfələrlə müxtəlif mükafatlara layiq görülüb. Öz peşəsini qəlbən sevdiyini, hərbi həkim olmasından qürur duyduğunu vurğulayan şöbə rəisi şöbəyə qəbul olunan hər bir hərbi qulluqçunun qayğı ilə əhatə olunduğunu dedi.



Mayor V.Əsgərova 2013-cü ildə Türkiyə Respublikasının Gülhanə Hərbi Tibb Akademiyasında ixtisasartırma kursu keçib. Orada qazandığı təcrübəni, bilikləri bu gün tabeliyində olan həkimlərlə bölüşür. O, şöbənin həkim, tibb bacıları, laborant və mülki işçilərinin iş və fərdi keyfiyyətlərinə yaxşı bələddir. Onunla söhbət edərkən bütün növ laborator və instrumental müayinələrin məhz bu şöbədə aparıldığını nəzərimizə çatdırdı. Söylədi ki, laborator müayinələrdən qanın ümumi analizi, biokimyəvi, seroloji, revmatik sınaqlar, infeksiyalar, hormonların müayinəsi, sidik müayinəsi, elektrokardioqramma, exokardioqramma, rentgen (qrafioskopiya), endoskopiya, qarın boşluğu orqanlarının ultrasəs müayinəsi, aşağı və yuxarı ətrafların, qalxanvari vəzin və müxtəlif orqanların dopler müayinəsi aparılır. Qospitala gələn bütün xəstələr, ilk olaraq, Qəbul şöbəsində çeşidlənir və onlara verilən göndərişə əsasən Funksional diaqnostika şöbəsinin mütəxəssisləri tərəfindən müayinə olunurlar. Öz xidmətini “DİN-in Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat”ın tələbləri əsasında quran tibb xidməti mayoru V.Əsgərova şöbənin fəaliyyətindən danışarkən tabeliyindəki həkimlərin peşəkarlığını xüsusi olaraq vurğuladı. Əsas etibarilə gənclərdən ibarət olan kollektivdə nizam-intizam, həkimlərin və orta tibbi heyətin funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşmasının sonda müsbət nəticələrə gətirdiyini dedi. Ələlxüsus, Vətən müharibəsi dövründə burada çalışan tibb işçilərinin, əsasən laborantların əməyi danılmazdır. Həmin müddətdə laborantlardan tibb xidməti baş leytenantları Ruslan Bayramov, Nərgiz Hüseynzadə, Vüsalə Əliyeva, Rəşidə Əsədova, baş gizir Səkinə Əsgərova, gizirlər Rəsmiyyə Nuriyeva, Leyla İsmayılova, Zərifə Alhüseynova, baş çavuşlar Pərvanə Həsənova, İlhamə Mehdiyeva, rentgen-texnik İlkin Rüstəmov funksional vəzifələrinin icrasında məsuliyyət və əzmkarlıq nümayiş etdiriblər. Laborant və texniklərin növbətçi qrafikinə əsasən fəaliyyət göstərdiklərini sözlərinə əlavə edən şöbə rəisi günün istənilən vaxtında burada xəstələr üçün lazımi şərait yaradıldığını söylədi.

Biz də, öz növbəmizdə, Hərbi Qospitalda xidmət edən bütün tibb personalına uğurlar arzulayır, fədakar xidmətlərində hər zaman nailiyyətlər qazanmağı diləyirik.

**baş leytenant Nigar Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Rusiya yeni RLS-ni xarici bazara təqdim edib

“Rosoboroneksport” Səhmdar Cəmiyyəti P-18-2 “Prima” radiolokasiya stansiyasını xarici bazara təqdim edib. Bu barədə “Poliqon”a “Rosoboroneksport” Səhmdar Cəmiyyətindən məlumat verilib.



NİTEL və “Almaz” qeyri-dövlət təşkilatlarının hazırladığı radiolokasiya stansiyası müasir və perspektivli görünməyən hədəfləri, o cümlədən, stels təyyarələri aşkarlamağa imkan verən texnologiyaların tətbiqi ilə hazırlanıb.

“Prima” radiolokasiya stansiyası müasir element bazasına əsaslanır və siqnalların rəqəmsal emalı texnologiyasına malikdir. Tamamilə sərt gövdəli, maneələrə qarşı müdafiəsi yüksəldilmiş stansiya, aktiv və passiv maneələrin tətbiqi şəraitində hədəflərin aşkarlanması, müşayiəti, ölçüsünün və koordinatlarının hesablanması, hava hədəflərinin sinifləndirilməsi üçün nəzərdə tutulur.

Beş dəqiqə ərzində döyüşə açılan P-18-2 radiolokasiya stansiyası bir nəqliyyat vasitəsinin şassisində yerləşdirilib. Stansiyanın döyüş heyəti iki nəfərdir.

Metrlik dalğa diapazonunda işləyən stansiya 320 km uzaqlıqda, eyni zamanda, 45 hava hədəfini izləməyə imkan verir. Radiolokasiya stansiyası QLONASS/GPS siqnalları ilə işləyən müasir peyk naviqasiya avadanlığıyla təchiz edilib.

### “Oshkosh Defense” şirkəti ABŞ Ordusuna əlavə JLTV maşınları tədarük edəcək

ABŞ Müdafiə Nazirliyi ilə “Oshkosh Defense” şirkəti arasında JLTV maşınlarının əlavə tədarükü üçün müqavilə bağlanıb.

Bu barədə “Poliqon”a “Oshkosh Defense” şirkətindən məlumat verilib.



Müqavilə çərçivəsində “Oshkosh Defense” şirkəti tərəfindən ABŞ Dəniz Piyadaları Korpusu üçün açıqlanmayan sayda JLTV yüngül taktiki zirehli maşınlar tədarük ediləcək. Müqavilənin dəyəri 15 milyon ABŞ dolları təşkil edir.

### Gürcüstan şirkəti yeni PUA hazırlayır

Gürcüstanın “Tam Management” şirkəti T-31 indeksli pilotsuz uçuş aparatının (PUA) yaradılması üzərində işləyir.



“Poliqon” xəbər verir ki, bu barədə “Business Media Georgia” televiziya kanalına müsahibəsində “Tam Management” şirkətinin direktor müavini Mixeil Roqava deyib.

Onun sözlərinə görə, yeni yaradılan taktiki PUA 350 kq faydalı yük daşıya bilər. T-31 PUA-nın kəşfiyyat-müşahidə konfiqurasiyası 72 saat davamlı uça biləcək.

“Yeni pilotsuz uçuş aparatı kəşfiyyat tapşırıqlarını yerinə yetirməklə yanaşı, sərhəd nəzarətində istifadə oluna bilər, o cümlədən, döyüş sahəsindəki artilleriya bölmələrinə hədəfi yüksək dəqiqliklə vurmağa imkan verir” – deyə direktor müavini vurğulayıb.

## Həkim məsləhəti

### PEYVƏNDLƏNMƏDƏN ƏVVƏL VƏ SONRA ORQANİZMDƏ VİTAMİN BALANSINI QORUMAQ LAZIMDIR

Artıq ölkəmizdə də yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı vaksinasiya prosesinə başlanılıb. Vaksinasiyadan əvvəl və sonra, həmçinin, sonrakı günlərdə qida rasionu hər kəsi maraqlandıran məsələlərdən biridir.

**AZƏRTAC** xəbər verir ki, həkim-dietoloq Ləman Süleymanova bu barədə deyib: “Əvvəla, bu məsləhətlər nəinki vaksinasiyaya hazırlaşan və vaksinasiya olunan, eləcə də sağlam olanlara da aiddir. İlk növbədə, çoxlu meyvə-tərəvəz və zülallı qidalar - yumurta, balıq, toyuq əti və qırmızı ət qəbul etmək lazımdır. Məsələ burasındadır ki, immun hüceyrələri zülal mənşəlidir və zülal defisiti olduqda virus və mikroblara qarşı müqa-




vimət zəifləyir”.

Onun dediyinə görə, insan orqanizmi hər zaman immun sistemini möhkəmləndirən zülal və vitaminlərlə zəngin olmalıdır. Peyvənd vurulduqdan sonra da orqanizmdə vitamin balansını, xüsusilə də D vitaminini qorumaq çox böyük əhəmiyyət daşıyır.

Xəstəliyə tam qalib gəlməyin yeganə yolu peyvənd olunmaq, orqanizmdə güclü immunitet sistemi yaratmaq və gigiyenik qaydalara əməl etməkdir.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Səbuhi Səmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti kapitan Vüsal Həsənova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti kapitan Əliəkbər Cəfərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000